# Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin 2015-ci ildə fəaliyyətinin yekunlarına dair

# HESABATI

Ümummilli lider Heydər Əliyev tərəfindən yaradılan və Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla inkişaf etdirilən Azərbaycanın müəllif-hüquq sistemi qarşısında 2015-ci ildə mühüm vəzifələr qoyulmuşdu. Hesabat ilində ölkəmizdə müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqlarının, o cümlədən rəqəmli mühitdə qorunması sahəsində ölkə başçısının tapşırıqlarının icrası ilə bağlı bir sıra əhəmiyyətli addımlar atılmış, "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasına uyğun olaraq qanunvericilik və idarəçilik sistemlərinin müasir tələblərə uyğun təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində fəaliyyət davam etdirilmişdir.

Konsepsiyada müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqları sahəsinin prioritet istiqamətlər sırasına daxil edilməsi ilə əlaqədar, həmçinin "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanunun tətbiqi ilə bağlı bir sıra normativ hüquqi aktların layihələri hazırlanmış, "Müəlliflik hüququ və digər oxşar əqli mülkiyyət hüquqları sahəsi üzrə Uzunmüddətli Milli Strategiya"nın yenilənmiş layihəsi üzərində işlər yekunlaşdırılmış, Agentliyin fəaliyyətinin prioritet inkişaf sahələri üzrə təsdiq olunmuş Strateji Plan əsasında müvafiq tədbirlər həyata keçirilmiş, habelə ölkəmizin əqli mülkiyyət sahəsində beynəlxalq müqavilələrdə iştirakından irəli gələn öhdəliklərin yerinə yetirilməsi üzrə aidiyyəti işlər görülmüşdür.

Bununla bağlı 2015-ci hesabat ilində Agentliyin fəaliyyət sahəsi ilə bağlı aşağıdakı istiqamətlərdə tədbirlər həyata keçirilmişdir:

**1. Qanunvericilik və normativ hüquqi baza.** "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasından irəli gələn vəzifələrin icrası, kreativlik və biliklərə əsaslanan iqtisadiyyatın inkişafını müəyyən edən amillər çərçivəsində "Müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan istehsalın (kreativ sənayenin) iqtisadiyyatda payının hesablanması və əqli mülkiyyət aktivlərinin qiymətləndirilməsi Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar layihəsi hazırlanmış və təsdiq üçün təqdim edilmişdir.

İnkişaf Konsepsiyasından irəli gələn və zəngin mədəni irsimizin qorunub saxlanmasına xidmət edən "Azərbaycan folkloru nümunələrinin və ənənəvi biliklərin hüquqi qorunması və qeydiyyatı Qaydaları" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərar layihəsi hazırlanaraq təqdim edilmişdir.

Həmçinin "Müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının rəqəmli şəbəkələr də daxil olmaqla kollektiv əsasda idarə edən təşkilatlar haqqında" Qanun layihəsi Aİ-nın "Müəllif hüquqları və əlaqəli hüquqların kollektiv idarə edilməsi və musiqili əsərlərə hüquqların daxili bazarda istifadə məqsədi ilə multiərazi lisenziyalaşdırılması haqqında" 26.02.2014-cü il tarixli Direktivi və digər beynəlxalq sənədlər nəzərə alınmaqla yenidən işlənmiş və hazırda yekunlaşdırılmışdır.

Bununla yanaşı, "Məlumat toplularının hüquqi qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu"na dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanun layihəsi, "Müəlliflik hüququ, əlaqəli hüquqlar və digər oxşar əqli mülkiyyət hüquqları obyektlərinin elektron ticarətinin tənzimlənməsi Qaydalarının təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin qərar layihəsi, Nazirlər Kabinetinin 1997-ci il 2 may tarixli 38 nömrəli Qərarına "Elm, ədəbiyyat və incəsənət əsərlərinin sifariş, o cümlədən dövlət sifarişi əsasında yaradılmasına və əsərlərin nəşrinə görə müəllif qonorarının və əsərlərin nəşrə hazırlanması ilə əlaqədar işlərə görə haqqın minimum miqdarı" adlı *Əlavə 11* Nazirlər Kabinetinin Qərar layihəsi və "Əsərlərin dövlət varidatı elan edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərar layihəsi hazırlanaraq

təqdim edilmişdir. Eyni zamanda “Piratçılığa qarşı mübarizə üzrə Komissiyanın yaradılması haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərar layihəsi, “Müəllif-hüquq lisenziyaları ilə təmin olunan açıq təhsil resurslarının yaradılmasına dair Konsepsiya” və “Tədbirlər planı” çərçivəsində “Açıq təhsil resursları əqli mülkiyyət mövqeyindən” kitabı, Rəqəmli hüquqların idarə edilməsi üzrə “on-line” lisenziyalaşmaya və “one-stop-shops” formatında rəqəmli hüquqlar üzrə xidmətlərin göstərilməsinə dair Tədbirlər Planı” (2015-2020) hazırlanmışdır.

Hesabat ilində Azərbaycan Respublikasının 31 hökumətlərarası, nazirlik və komitələrin müxtəlif ölkələrin aidiyyəti qurumları ilə bağlanması nəzərdə tutulan 6, MDB üzrə isə 8 müqavilə, saziş və sənəd layihələrinə əqli mülkiyyət hüquqları hissəsi üzrə rəy və təkliflər verilmişdir. Bu çərçivədə Azərbaycan Respublikasının Hökuməti ilə Türkmənistan və Qazaxıstan Hökumətləri arasında müəlliflik hüququ və əlaqəli hüquqların qorunması sahəsində əməkdaşlıq haqqında Saziş layihələri hazırlanmış və müvafiq qaydada razılaşdırılmışdır.

Həmçinin Avropa İttifaqı Komissiyası ilə birgə 2016-cı ildə reallaşdırılması nəzərdə tutulan Tvinninq layihəsi hazırlanmışdır. Layihə müəlliflik hüququ və əlaqəli hüquqların qorunması və piratçılığa qarşı mübarizənin səmərəliliyinin artırılması sahələrində Agentliyin institusional potensialının gücləndirilməsi çərçivəsində milli rəqəmsal aqreqatorun yaradılması və nəzarət markalarının tətbiqinin təmin olunması məqsədilə müvafiq hüquqi bazanın təkmilləşdirilməsini və tətbiqi mexanizmlərinin yaradılmasını ehtiva edir.

**2. Əsərlərin və digər əqli mülkiyyət obyektlərinin qeydiyyatı.** Əsərlərin rəsmi qeydiyyatının tətbiq edildiyi 1996-cı ildən 2016-cı il 1 yanvar tarixinədək Agentlikdə 10344 əsər və əlaqəli hüquqların obyektləri, o cümlədən son vaxtlar “Elektron xidmət” bölməsi vasitəsi ilə 61 müəllifin 97 əsəri qeydiyyatdan keçirilmişdir.

Hesabat ili ərzində 236 müəllifin 703 əsəri qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında 458 Şəhadətnamə verilmişdir, o cümlədən “Elektron xidmət” bölməsi vasitəsi ilə müəlliflərin 35 müraciəti əsasında 40 əsər qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında 40 şəhadətnamə verilmişdir. Bununla yanaşı, hesabat ilində 13 müqavilə qeydiyyatdan keçirilmişdir.

Əsərlərin və digər əqli mülkiyyət obyektlərinin qeydiyyatına görə Dövlət büdcəsinə 3895 manat vəsait ödənilmişdir.

1996-2015-ci illərdə qeydiyyatdan keçirilmiş əsərlərin ümumi sayı (faizlə)
(on-line qeydiyyat daxil olmaqla)




Musiqili – 29,93%
Ədəbi, o cümlədən kompüter proqramı – 24,15%
Elmi və tədris – 21,85 %   Dizayn və dekorativ – 7,8%
Toplular – 3,6%   Multimediya əsərləri – 0,8%
Fonoqramlar və yayım təşkilatlarının verilişləri - 0,4%
Məlumat bazaları – 0,11%   Audiovizual – 4,8%
Qalanları – 5,6%

2015-ci ildə müəlliflərin əmlak hüquqlarının kollektiv əsasda idarəçiliyinin təmin edilməsi nəticəsində istifadəçi təşkilatlar tərəfindən Agentliyin bank hesabına 102917 manat müəllif qonorarı köçürülmüş, müəlliflərə köçürmə yolu ilə 56355 manat müəllif qonorarı ödənilmiş, büdcəyə vergilər şəklində 15950 manat vəsait köçürülmüşdür.

**3. Əqli mülkiyyətin iqtisadi inkişafın vacib alətinə çevrilməsi.** Ölkənin Ümumi Daxili Məhsulunda (ÜDM) müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan kreativ sənayenin payı davamlı olaraq artmaqdadır. Agentlikdə aparılan hesablamalara əsasən, kreativ sənaye sahələrinin istehsal həcmi 2003-cü ildə olan 220,5 mln. manatdan 2015-ci ilin 1 yanvarına olan dövrə görə 2973,6 mln. manat olmuş və faktiki olaraq 13 dəfə artmışdır. Bu da ölkənin ÜDM-ində kreativ sənayenin payı 5,0% olması deməkdir. Bununla yanaşı, müəlliflik hüququnun əsas istehsal sahələrinin həcmi 153,3 mln. manatdan 1785,6 mln. manata qədər, yəni 11,6 dəfə artmışdır.

***Müəlliflik hüququna əsaslanan industriyanın istehsal həcmi (mln. manat)***




Beləliklə, 2003-2014-cü illər ərzində ölkənin ÜDM-də müəlliflik hüququna əsaslanan sənayenin xüsusi çəkisi 3,1%-dən 5%-ə yüksəlmişdir ki, bu da 60% artım deməkdir.

***Azərbaycanın müəlliflik hüququna əsaslanan industriyasının və əsas müəlliflik hüququnun (əsas sahələr) ÜDM-də payı***




***Qeyd:*** *2015-ci il 1 yanvara olan vəziyyətə görə*

Ölkənin davamlı və sürətli inkişafını təmin edən "Azərbaycan modeli" müəlliflik hüququna əsaslanan kreativ iqtisadiyyatın artım tempinin katalizatoru rolunu oynamışdır. Bu da ölkəmizdə əlavə iş yerlərinin yaradılmasına, eyni zamanda iqtisadi artıma təkan vermişdir. Nəticədə müəlliflik hüququna əsaslanan kreativ iqtisadiyyatının ölkənin ÜDM-dəki payı artmış və dünyanın inkişaf etmiş və intensiv inkişafda olan ölkələrinin orta səviyyəsinə çatmışdır.

Müəlliflik hüququna əsaslanan kreativ iqtisadiyyatın ölkənin ÜDM-də payı




***Qeyd:*** *Altından xətt çəkilən ölkələr Beynəlxalq Valyuta Fondunun təsnifatına əsasən, inkişaf etmiş ölkələr sayılır.*

Bu sahədə aparılan araşdırmaların təşviqi məqsədilə “Azərbaycanın kreativ industriyasının inkişaf strategiyası və onun metodoloji qiymətləndirilməsinə yeni yanaşmalar” və “Yeni biliklərə əsaslanan iqtisadi artım və kreativ sənayenin iqtisadi payı: Azərbaycan təcrübəsi” kitabçaları (Azərbaycan və rus dillərində) hazırlanmış və çap olunmuşdur.

**4. Müəllif hüquqlarının təminatı və əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması.** Müəllif hüquqlarının təminatı və əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması ölkəmizdə daim diqqət mərkəzində saxlanılır. Piratçılığın səviyyəsinin azaldılması istiqamətində görülən tədbirlər nəticəsində 2005-ci illə müqayisədə kitab satışı sahəsində 61%-dən 30%-ə, audio-video məhsul bazarında 90%-dən 65%-ə, proqram təminatında 96%-dən 85%-ə düşmüşdür.




Müəlliflərin və digər hüquq sahiblərinin qaldırdıqları problemlərin daha operativ şəkildə həll etmək məqsədilə Agentlikdə açılmış 960 nömrəli “Qaynar xətt” və ictimai əsaslarla fəaliyyət göstərən “Hüquq məsləhətxanası” il ərzində onların istifadəsində olmuşdur. Belə ki, hesabat dövründə 1400-dən artıq şəxsin Agentliyə müraciət və sorğuları operativ şəkildə cavablandırılmış, müəlliflər və hüquq sahiblərinin müraciətləri əsasında iddia ərizələrinin tərtib edilməsinə kömək göstərilmiş, müxtəlif məhkəmə instansiyalarında keçirilmiş 30 məhkəmə iclasında iştirak edilmiş, dövlət,

məhkəmə orqanlarının və hüquq sahiblərinin sorğuları əsasında müəllif-hüquq məsələləri ilə bağlı 13 ekspert rəyi hazırlanmışdır.




Hesabat ilində hüquqi maarifləndirilmə məqsədi ilə Agentliyin təşkilatçılığı və iştirakı ilə 6 beynəlxalq və milli konfrans keçirilmiş, KİV-lərdə 100-ə yaxın informasiya, maarifləndirici və təbliğat xarakterli material dərc olunmuş, TV və radio kanallarında çoxsaylı veriliş və süjetlər göstərilmiş, Agentliyin təşkil etdiyi tədbirlərdə ölkəmizi, digər dünya dövlətlərini və beynəlxalq təşkilatları təmsil edən peşəkar mütəxəssislər, alimlər, beynəlxalq ekspertlər, tarixçilər və qeyri-hökumət təşkilatlarının nümayəndələri tərəfindən 30 prezentasiya və 32 məruzə edilmişdir. Agentliyin nümayəndələri həmçinin müxtəlif beynəlxalq tədbirlərdə 5 məruzə etmişlər.

Bununla yanaşı, 3 kitab, 29 broşura və kitabça, o cümlədən "Əqli mülkiyyət dünən, bu gün və sabah", "Müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqları sahəsinin inkişafının Milli strategiyası" (Azərbaycan və rus dillərində), "İnternetdə müəlliflik hüququnun qorunması ilə bağlı çağırışlar: Azərbaycan təcrübəsi" (Azərbaycan və rus dillərində), "İnternet və müəlliflik hüququ: maraqların toqquşması və kompromisin axtarışı" (Azərbaycan, rus və ingilis dillərində), "Müəllif-hüquq qanunvericiliyində istisnalar və məhdudiyyətlər" (Azərbaycan və rus dillərində) kitabçaları buraxılmış, çoxsaylı maarifləndirici materiallar, o cümlədən müəllif-hüquq sahəsi üzrə 7 beynəlxalq konvensiya, müqavilə və sazişlər, qanunlar, digər normativ hüquqi aktlar çap edilmiş, keçirilən tədbirlərdə təbliğat vasitəsi kimi paylanmışdır.



Ənənəvi olaraq, ölkəmizdə “Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü” və “Beynəlxalq Əqli Mülkiyyət Günü” təntənəli şəkildə qeyd olunmuş, silsilə tədbirlər təşkil edilmişdir. Bu çərçivədə aprelin 21-də “Müəllif və riyakarlıq, kitab və yalan” (erməni tarixi saxtakarlıqları silsiləsindən) mövzusunda konfrans keçirilmişdir. Aprelin 24-də isə Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi (MHA), Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) birgə təşkilatçılığı ilə “Azərbaycan 2020: əqli mülkiyyətin gələcəyinə baxış: kreativlik, əqli mülkiyyət və innovasiyalı inkişaf” mövzusunda konfrans təşkil edilmiş, həmin tədbirdə Agentlik tərəfindən “Əqli mülkiyyət dünən, bu gün və sabah” mövzusunda geniş prezentasiya təqdim edilmişdir. Konfransda İnkişaf Konsepsiyasına uyğun olaraq prioritet istiqamətlər sırasına daxil edilmiş əqli mülkiyyətin inkişafının yaxın gələcək üçün müəyyən edilmiş hədəfləri və perspektivləri, həmçinin əqli mülkiyyətin müasir iqtisadiyyatın inkişafındakı əhəmiyyəti və müəlliflik hüququna əsaslanan kreativ sənayenin rolu, Konsepsiyadan irəli gələn vəzifələrin icrası ilə bağlı məsələlər işıqlandırılmışdır.

**5. Erməni plagiatçılığına qarşı mübarizə.** 2015-ci ildə Agentlik xalqımızın folklor nümunələrinin və ənənəvi biliklərinin hüquqi qorunması, xüsusən erməniçilik tərəfindən mədəni irsimizin mənimsənilməsi və saxtalaşdırılması cəhdlərinin qarşısının alınması istiqamətində fəaliyyətini davam etdirmişdir.

Ermənistan kütləvi informasiya vasitələrində Azərbaycana məxsus Qarabağ atları ilə bağlı uydurmalar və təndirin ermənilər tərəfindən özününküləşdirməsi, həmçinin Azərbaycanın qədim milli rəqslərindən olan “Köçəri”nin erməni milli dəyəri kimi YUNESKO-nun Dünya Mədəni İrs siyahısına daxil edilməsi üçün məsələ qaldırılması ilə əlaqədar Agentliyin tarixi faktlara, elmi və etimoloji əsaslara və mənbələrə istinadla hazırladığı arayış və şərhlərdə erməni iddialarının əsassızlığı göstərilmişdir.

Bununla yanaşı, Agentliyin təşkilatçılığı, dəstəyi və iştirakı ilə keçirilən müxtəlif milli və beynəlxalq tədbirlərdə, o cümlədən aprelin 21-də Bakıda keçirilmiş “Müəllif və riyakarlıq, kitab və yalan (erməni tarixi saxtakarlıqları silsiləsindən)” mövzusunda konfransda Agentliyin nümayəndəsi ermənilərin ərazilərimizə, maddi və qeyri-maddi mədəniyyət nümunələrimizə iddialarını ifşa edən prezentasiya və məruzələrlə çıxış etmiş, onların əməllərinə qarşı görülən işlər barədə məlumat vermişdir.

Həmçinin Müəllif Hüquqları Agentliyi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının birgə təşkilatçılığı ilə 30 noyabr – 1 dekabr tarixlərində Bakıda keçirilən “Arxivlər, kitabxanalar və təhsil müəssisələri üçün istisnalar və məhdudiyyətlər” mövzusunda beynəlxalq seminarda Agentliyin sədri tərəfindən edilmiş məruzədə erməni vəhşilikləri və ermənilərin mədəni irsimizə vurduğu zərbələr haqqında geniş məlumat verilmiş, o cümlədən qeyd olunmuşdur ki, “Böyük Ermənistan” xülyası ilə yaşayan bədnam qonşularımız Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində torpaqlarımızı zəbt edib, ərazi iddialarını “əsaslandırmaq” məqsədi ilə maddi və qeyri-maddi mədəni irsimizi xüsusi qəddarlıq və həyasızlıqla talan və məhv edir. Ermənistanın işğal etdiyi ərazilərdə 13 dünya əhəmiyyətli, 292 milli əhəmiyyətli, həmçinin 330 yerli əhəmiyyətli abidə dağıdılıb və ya istifadəyə yararsız hala salınıb. 804 qəbiristanlıq və 10 məscid talan və təhqir edilib, 40 min eksponatın saxlandığı 22 muzey və dörd rəsm qalereyası vəhşicəsinə yerlə-yeksan olunub. Dağıdılmış və yandırılmış 927 kitabxanada 4,6 milyon nüsxə kitab və qiymətli əlyazmalar məhv edilib”.

Hesabat ilində Agentlikdə erməni saxtakarlıqlarını ifşa edən “Erməni yadelli nağılları” kitabı və “Gəldim, gördüm..., mənimsədim” kitabçası Azərbaycan, rus, ingilis və fransız dillərində təkrar nəşr edilmiş, “Erməni tarixi uydurmalarının tarixinə giriş”, “Öz-özünü təkzib edən “erməniçilik müəlliflik hüququ” və “Əqli mülkiyyət: folklorun və ənənəvi biliklərin qorunması və erməni plagiatçılığı” kitabçaları çap edilmiş və il

ərzində keçirilmiş tədbirlərdə xarici qonaqlara, nümayəndələrə və tədbirlər zamanı iştirakçılara paylanmışdır.

Həmçinin ermənilər tərəfindən mütəmadi olaraq erməni nümunələri kimi qələmə verilən və ya ifa edilən Azərbaycan xalq mahnıları, xalq rəqsləri, milli musiqi alətlərimiz və milli mətbəx nümunələrimizin etimologiyası, yaranma tarixi, milli xüsusiyyətləri barədə yerli KİV-lər və yayım kanalları vasitəsi ilə il ərzində müsahibələr verilmiş, şərhlər, bəyanatlar və etirazlar bildirilmiş, eyni zamanda milli musiqi alətlərimizin təbliği və tanıdılması məqsədi ilə onların bir qisminin miniatür formaları hazırlanaraq beynəlxalq təşkilatların nümayəndələrinə, həmçinin Agentliyin təşkilatçılığı və dəstəyi ilə keçirilən tədbirlərdə iştirak edən xarici qonaqlara təqdim edilmişdir.

**6. İKT və Elektron xidmətlər.** Müasir dövrdə İKT obyektlərinin elektron ticarətdə fəal iştirakı nəzərə alınmaqla, eyni zamanda “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyasından irəli gələn İT-İP və elektron xidmətlərin təşkil ilə bağlı aidiyyəti vəzifələrin icrasını təmin etmək məqsədi ilə hesabat dövründə Agentlikdə müəlliflik hüququ və əlaqəli hüquqları obyektlərinin nüsxələrinə yapışdırılan nəzarət markalarının fərdiləşdirilməsi və həmin nüsxələrin orijinallığını müəyyən edən elektron Smart sistemi və on-line lisenziyalaşmaya və “one-stop-shops” formatında hüquqların idarəedilməsi xidmətlərinin göstərilməsinə əsaslanan rəqəmsal hüquqları idarəetmə sistemi - “DRM Terminal” tam hazır vəziyyətə gətirilmişdir.

Eyni zamanda Azərbaycana məxsus mədəni sərvətlərin, o cümlədən muzeylərdə, kitabxanalarda və arxivlərdə qorunub-saxlanılan və ictimai varidat sayılan mədəni irs və digər əqli mülkiyyət nümunələrinin mərkəzləşmiş şəkildə rəqəmləşdirilməsi və idarə edilməsi, hüquqi qorunması və beynəlxalq təşkilatlarla, həmçinin xarici dövlətlərin aidiyyəti qurumları ilə mübadiləsi üçün Agentlikdə həyata keçirilən tədbirlər çərçivəsində bu günə kimi Azərbaycanın ənənəvi musiqilərindən muğamlar (64), aşıq mahnıları (100), xalq mahnıları (100), xalq rəqsləri (99), saz havaları (115), “Molla Nəsrəddin” kitabı (8 cilddə) və s., o cümlədən mətn əsərləri, fotoşəkillər və videoçarxlar müəllif-hüquq qanunvericiliyinə uyğun olaraq rəqəmləşdirilmiş və elektron bazaya yüklənmişdir və bu istiqamətdə iş davam etdirilir.

Bu bazanın ÜƏMT-nin Qlobal Məlumat bazası ilə uyğunlaşdırılması və inteqrasiya edilməsi nəzərdə tutulur və bununla bağlı ÜƏMT rəhbərliyi ilə razılıq əldə olunmuşdur.

İKT-nin mədəniyyətə təsiri və İT-İP əlaqəsi ilə bağlı məsələlərin vacibliyi nəzərə alınaraq, bu sahə üzrə problemlərin nəzəri və praktiki həllərinə həsr olunmuş “Mədəniyyətin rəqəmsallaşması və rəqəmli copyright dayanıqlı inkişafda”, “Virtual məkan və müəlliflik hüququnun inkişafı” və “IT-IP: əqli mülkiyyətin gələcəyinə baxış” broşuraları hazırlanmış və çap edilmişdir.

Bununla yanaşı, əqli mülkiyyət sahəsində mütəxəssislərin hazırlanması, həmçinin mövcud kadr potensialının gücləndirilməsi məqsədi ilə Agentliyin tabeliyində Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzində “Distant təhsil və videokonfrans” sistemi yaradılmış, interaktiv Smart-klass təlim-tədris Mərkəzi fəaliyyətə başlamışdır. Bu sahədə fəaliyyəti daha da genişləndirmək, o cümlədən ÜƏMT Akademiyası ilə ikitərəfli əməkdaşlığı gücləndirmək məqsədi ilə hazırda Müəllif Hüquqları Agentliyi ilə ÜƏMT arasında müvafiq müqavilə bağlanması üçün ÜƏMT rəhbərliyi ilə danışıqlar aparılır.

Hesabat ilində Agentliyin **www.copag.gov.az** saytında təkmilləşdirmə işləri davam etdirilmiş, Elektron xidmət bölməsindən istifadə asanlaşdırılmış, digər dövlət orqanları ilə mübadilə üçün nəzərdə tutulan “Qeydiyyat” elektron məlumat bazası yeni texniki tələblər və proqram təminatı nəzərə alınmaqla tamamilə yenidən yaradılmış və hazırda onun "Elektron hökumət" portalına inteqrasiyası üzrə işlər yekunlaşdırma mərhələsindədir, həmçinin “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı

mübarizə haqqında” Qanunun icrası ilə əlaqədar yeni elektron xidmətlərin yaradılması üzrə tədbirlər davam etdirilir.

**7. Beynəlxalq əməkdaşlıq.** Hesabat ilində Azərbaycan Respublikasının əqli mülkiyyət sahəsində beynəlxalq sazişlərdən irəli gələn öhdəliklərinin yerinə yetirilməsi istiqamətində geniş beynəlxalq əməkdaşlıq aparılmış, ölkəmiz Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) rəhbər orqanlarında, o cümlədən onun Koordinasiya Komitəsində, həmçinin Proqram və Büdcə Komitəsində təmsil olunmuşdur.

İl ərzində Agentliyin təşkilatçılığı və dəstəyi ilə Bakıda 4 beynəlxalq konfrans təşkil edilmiş, Agentliyin nümayəndələri ÜƏMT-nin Baş Assambleyasının, Əqli Mülkiyyət, Genetik Resurslar, Ənənəvi Biliklər və Folklor üzrə Hökumətlərarası Komitəsinin, Müəllif Hüququ və Əlaqəli Hüquqlar üzrə Daimi Komitəsinin və ÜƏMT çərçivəsində təmsil olunduğumuz Regional qrupun iclaslarında və digər tədbirlərdə iştirak etmişlər.

2015-ci ilin 5-14 oktyabr tarixlərində İsveçrənin Cenevrə şəhərində keçirilən ÜƏMT-üzv dövlətlərinin Baş Assambleyasının 55-ci toplantısında Agentliyin nümayəndə heyəti iştirak etmişdir. Səfər çərçivəsində ÜƏMT-nin Baş direktoru cənab F.Qarri ilə keçirilmiş görüşdə o, ötən il ölkəmizə etdiyi səfəri, dövlət başçısı cənab İlham Əliyevlə unudulmaz görüşünü xatırladaraq, ölkəmizdə əqli mülkiyyət sahəsində görülmüş işlərə və əldə olunmuş nəticələrə yüksək dəyər vermiş, informasiya texnologiyaları əsasında Agentlikdə həyata keçirilən müasir layihələrə və Azərbaycan əsərlərinin rəqəmsal məlumat bazasının ÜƏMT-nin Qlobal məlumat bazası ilə əlaqələndirilməsi işinə, həmçinin ÜƏMT Akademiyası və Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi arasında əməkdaşlığın genişləndirilməsinə dəstək nümayiş etdirmişdir.

2015-ci ildə ÜƏMT-nin rəhbər orqanlarına keçirilən seçkilər zamanı Azərbaycan yenidən ÜƏMT-nin fəaliyyətinin həyata keçirilməsində xüsusi rola malik olan Koordinasiya Komitəsinin və Proqram və Büdcə Komitəsinin 2 il müddətinə üzvü, Müəllif Hüquqları Agentliyinin rəhbəri isə 2 il müddətinə ÜƏMT-nin Müəllif Hüququna dair Müqaviləsinin Assambleyasının vitse-prezidenti seçilmişdir.

“Azərbaycan Respublikası Hökuməti və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nun həyata keçirilməsi ilə bağlı 2014-2017-ci illər üzrə Fəaliyyət Planı” çərçivəsində Müəllif Hüquqları Agentliyi və ÜƏMT-nin birgə təşkilatçılığı ilə keçirilmiş “Arxivlər, kitabxanalar və təhsil müəssisələri üçün istisnalar və məhdudiyyətlər” mövzusunda beynəlxalq seminarda ÜƏMT, Kitabxana Assosiasiyaları Beynəlxalq Federasiyası (IFLA), Beynəlxalq Naşirlər Assosiasiyası (IPA) və Surətçıxartma Hüquqları Təşkilatları Beynəlxalq Federasiyasının (IFRRO) məsul şəxsləri, Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Gürcüstan, ABŞ və digər ölkələrdən əqli mülkiyyət üzrə ekspertlər, kitabxana işçiləri və sahə üzrə mütəxəssislər iştirak etmişlər.

Bununla yanaşı, Müəllif Hüquqları Agentliyinin dəstəyi ilə “Azərbaycan Müəllifləri” İctimai Birliyi və Müəllif və Bəstəkarlar Cəmiyyətlərinin Konfederasiyası (CİSAC) ilə birgə əməkdaşlıqda 23-26 aprel 2015-ci il tarixlərində keçirilmiş “Müəlliflik hüququ və əlaqəli hüquqların idarəçiliyi” mövzusunda və “Azərbaycan Müəllifləri” İctimai Birliyi və Reproqrafik Hüquqlar Təşkilatlarının Beynəlxalq Federasiyası (İFRRO) ilə birgə 17-18 sentyabr 2015-ci il tarixlərində keçirilmiş “Mətn və təsvir sahəsində hüquqların kollektiv idarəçiliyi. Reproqrafik hüquqlar” mövzusunda beynəlxalq seminarlarda əsas məruzəçisi Agentliyin nümayəndəsi olmuşdur. Sözügedən tədbirlərdə dünyanın bir sıra ölkələrindən nümayəndələr iştirak və çıxış etmişlər.

Həmçinin 12-14 noyabr 2015-ci il tarixlərində Agentliyinin nümayəndəsi Ombudsmanların XIII Bakı beynəlxalq konfransının “Konstitusiya insan hüquqlarının əsas təminatçısı kimi” mövzusu üzrə sessiyasında “Əqli mülkiyyət və insan hüquqları” mövzusunda çıxış etmişdir.

Bununla yanaşı, beynəlxalq əməkdaşlıq çərçivəsində Agentliyin təşkilatçılığı ilə Agentliyin və digər dövlət orqanlarının məsul şəxsləri müxtəlif beynəlxalq tədbirlərdə iştirak etmişlər. Belə ki, 2015-ci ilin 14-18 sentyabr tarixlərində Koreya Respublikasının Seul şəhərində ÜƏMT ilə Koreya Mədəniyyət, İdman və Turizm Nazirliyi və Koreya Müəllif Hüquqları Komissiyasının birgə təşkilatçılığı ilə keçirilən Müəllif hüquqlarının təminatı üzrə regionlararası konfransda Azərbaycan Respublikası Ali Məhkəməsinin və Müəllif Hüquqları Agentliyinin nümayəndələri iştirak etmiş, ölkəmizdə müəllif hüququnun tətbiqi problemləri və perspektivləri ilə bağlı mövcud vəziyyət barədə məlumat vermişlər.

Həmçinin Agentliyin nümayəndəsi ÜƏMT tərəfindən Gürcüstan Milli Əqli Mülkiyyət Mərkəzi ilə birgə əməkdaşlıqda 2015-ci il 28-29 may tarixlərdə Tbilisi şəhərində keçirilmiş Pekin və Mərakeş müqavilələrinin təşviqi üzrə Qafqaz, Mərkəzi Asiya və Şərqi Avropa ölkələrinin Regional iclasında iştirak etmiş və ölkəmizdə müəllif-hüquq sahəsində mövcud qanunvericilik və görülən işlər barədə məruzə ilə çıxış etmişdir.

**Agentlikdə müəllif hüquqları sahəsində əməkdaşlıq məsələləri üzrə keçirilmiş ikitərəfli görüşlər.**

Hesabat ilində Agentlikdə beynəlxalq təşkilatların və xarici ölkələrin nümayəndələri ilə müəllif-hüquq sahəsində əməkdaşlıq məsələləri üzrə bir sıra görüşlər keçirilmişdir.

1) 2015-ci il 3 fevral tarixində Müəllif Hüquqları Agentliyində Agentliyin rəhbəri ilə Türkiyə Respublikasının Bakıdakı Səfirliyinin Mədəniyyət və Tanıtma Müşaviri Seyid Ahmet Arslan və Türkiyə Elm və Ədəbiyyat Əsəri Sahibləri Məslək Birliyinin (İLESAM) Genel başkanı Mehmet Nuri Parmaksız arasında görüş keçirilmişdir. Görüşdə elm və ədəbiyyat əsərlərinin birgə layihələr əsasında Azərbaycan və Türkiyə ərazilərində istifadəsi, təbliği və yayılması, həmçinin istifadə olunacaq əsərlərə müəllif hüquqlarının tənzimlənməsi ilə bağlı məsələlər müzakirə olunmuş, bu sahədə əməkdaşlığın daha da dərinləşməsində bu cür görüşlərin əhəmiyyəti xüsusi vurğulanmışdır. Müzakirələrin nəticəsi olaraq, konkret layihələrin hazırlanması və həyata keçirilməsi qərara alınmışdır.

2) 2015-ci il aprelin 13-də Müəllif Hüquqları Agentliyində Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) nümayəndələri xanım İsabella Pimentel və cənab Giulio Zanetti ilə görüş keçirilmişdir. Görüşdə ÜƏMT Akademiyası ilə əqli mülkiyyət sahəsində əməkdaşlıq məsələləri və ölkəmizdə əqli mülkiyyət üzrə milli akademiyanın yaradılması perspektivləri müzakirə edilmişdir. Görüşdə Agentliyin sədri tərəfindən Azərbaycanın əqli mülkiyyət sistemi və son dövrlərdə ölkəmizdə müəllif hüquqlarının qorunması sahəsində görülmüş işlər, həmçinin hüquqların təminatında maarifləndirmə işinin əhəmiyyəti nəzərə alınmaqla Agentlik tərəfindən həyata keçirilən bir sıra tədbirlər, o cümlədən hakimlər, gömrük və hüquq mühafizə orqanlarının əməkdaşları, kollektiv idarəetmə təşkilatlarının nümayəndələri, hüquq sahibləri, elm adamları, tələbələr və digər qrup insanlar üçün əqli mülkiyyət üzrə təşkil edilən müxtəlif təlimlər barədə məlumat verilmişdir. Xanım İ.Pimentel Agentliyin son illərdəki fəaliyyətinin xüsusi maraq doğurduğunu bildirmiş, səfər çərçivəsində Azərbaycanda əqli mülkiyyətlə bağlı cari vəziyyətin və əqli mülkiyyət hüquqları üzrə hazırlanacaq təlimçilər üçün təlimlərin keçirilməsi perspektivinin öyrəniləcəyini və bu məqsədlə onlar tərəfindən müəyyən planın hazırlanacağını qeyd etmişdir.

3) 2015-ci il aprelin 14-də Müəllif Hüquqları Agentliyində Fransanın Rusiyadakı Səfirliyinin regional iqtisadi şöbəsinin əqli mülkiyyət üzrə regional müşaviri, Azərbaycan üçün məsul şəxs Marion Qüt və Fransanın Azərbaycandakı Səfirliyinin iqtisadi attaşesi İris Buaye ilə görüş keçirilmişdir. Görüşdə əqli mülkiyyət sahəsində əməkdaşlıq məsələləri müzakirə edilmişdir. Xanım M.Qüt Azərbaycanda əqli mülkiyyət hüquqlarının qorunması sahəsində əldə olunan nailiyyətlər, o cümlədən CD/DVD

bazarında piratçılığın qarşısının alınması ilə maraqlanmışdır. Agentliyin sədri Azərbaycanın əqli mülkiyyət sistemi və son dövrlərdə ölkəmizdə müəllif hüquqlarının qorunması, piratçılığa qarşı mübarizə və əqli mülkiyyətin iqtisadi əhəmiyyətinin artırılması istiqamətlərində görülmüş işlər, həmçinin hüquqların təminatında maarifləndirmə işinin əhəmiyyəti nəzərə alınmaqla son vaxtlar Agentlik tərəfindən həyata keçirilən bir sıra tədbirlər, o cümlədən hakimlər, gömrük və hüquq mühafizə orqanlarının əməkdaşları, kollektiv idarəetmə təşkilatlarının nümayəndələri, hüquq sahibləri, elm adamları, tələbələr və digər qrup insanlar üçün əqli mülkiyyət üzrə müxtəlif təlimlər barədə məlumat vermişdir. Tərəflər əqli mülkiyyət sahəsində əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğulamışlar.

4) Hesabat ilinin iyul ayının 9-da Müəllif Hüquqları Agentliyinin sədri ilə "Microsoft" şirkətinin Azərbaycan üzrə Nümayəndəliyinin Baş direktoru cənab Rüfət Hacıəlibəyovun görüşü olmuşdur. Görüş zamanı dövlət orqanlarında və təhsil sistemində tam lisenziyalı proqram təminatına keçilməsi ilə bağlı məsələlər müzakirə olunmuşdur. Agentliyin sədri qeyd etmişdir ki, ölkəmizdə əqli mülkiyyət hüquqlarının təminatı səviyyəsini yüksəltmək, xüsusən kompüter piratçılığına qarşı mübarizə tədbirlərini gücləndirmək məqsədi ilə mütəmadi tədbirlər həyata keçirilir və dövlət orqanlarının və təhsil sistemi müəssisələrinin tam lisenziyalı proqram təminatına keçməsi ilə bağlı müvafiq dövlət orqanları tərəfindən görülən işlər sürətləndirilir. Belə ki, mərkəzi icra hakimiyyəti orqanlarında və orta təhsil məktəblərində lisenziyalı proqram təminatı məsələləri artıq həll edilmişdir. Bu sahədə müvafiq tədbirlərin görülməsində Müəllif Hüquqları Agentliyi tərəfindən öz səlahiyyətləri daxilində müvafiq qurumlara hər cür kömək göstərilir və gələcəkdə də göstəriləcəkdir.

Cənab Rüfət Hacıəlibəyov proqram təminatı sahəsində şirkət tərəfindən reallaşdırılan proqramlar haqqında məlumat vermiş, Müəllif Hüquqları Agentliyi ilə əməkdaşlığa böyük önəm verdiklərini vurğulayaraq, dövlət orqanlarında və ali və orta ixtisas təhsili müəssisələrində lisenziyalı proqram təminatının istifadəsini təmin edən səmərəli tədbirlərin tətbiqində Müəllif Hüquqları Agentliyi tərəfindən dəstək verilməsini xahiş etmiş, eyni zamanda bu sahədə əməkdaşlığın müsbət nəticə verəcəyinə inam hissini ifadə etmişdir.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, "Microsoft" şirkətinin Azərbaycan üzrə Nümayəndəliyinin Baş direktoru Rüfət Hacıəlibəyov və şirkətin Mərkəzi və Şərqi Avropa üzrə Lisenziyalaşma Departamentinin direktoru Yevgeni Danilovla Agentlikdə iki işçi görüş keçirilmiş və dövlət orqanlarında və təhsil sistemində tam lisenziyalı proqram təminatına keçilməsi və proqram təminatı sahəsində piratçılıqla mübarizə mexanizmlərinin işlənib hazırlanması məsələləri müzakirə olunmuşdur. Müzakirələrin nəticəsi olaraq bu məsələ ilə bağlı Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə və Təhsil Nazirliyinə müvafiq məktublar göndərilmişdir.

5) 2015-ci il 23 fevral və 10 iyul tarixlərində Müəllif Hüquqları Agentliyində müvafiq olaraq, "Plagiat.pl" şirkətinin MDB və Asiya ölkələri üzrə Regional direktoru Əli Təhməzov və "Plagiat.pl" şirkətinin prezidenti Sebastian Kavçinski ilə görüşlər keçirilmişdir. Bu görüşlərdə "Azərbaycan dilində antiplagiat sistemin yaradılması" haqqında müzakirələr aparılmışdır. Müzakirələrdə Azərbaycan dilində antiplagiat sistemin yaradılmasının vacibliyi qeyd olunmuş və bununla əlaqədar müzakirələrin davam etdirilməsi və xüsusi seminarın keçirilməsi qərara alınmışdır.

6) 2015-ci il dekabrın 15-də Müəllif Hüquqları Agentliyində Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin Əməliyyatlar bölməsinin rəhbəri Jeroen Villemslə görüş olmuşdur. Görüşdə 2016-cı ildə həyata keçirilməsi planlaşdırılan Tvinninq layihəsi müzakirə edilmişdir. Agentliyin sədri Azərbaycanda əqli mülkiyyət hüquqlarının qorunması və idarə olunması sahəsində görülən genişmiqyaslı işlər haqqında ətraflı məlumat vermiş, həmçinin Müəllif Hüquqları Agentliyində yaradılmış rəqəmli hüquqları idarəetmə sistemi və unikal elektron məlumat bazası barədə

danışaraq, bu işlərin görülməsində Avropa İttifaqının bir neçə ölkəsinin iştirakını xüsusi vurğulamışdır.

J.Villems Azərbaycanda müəllif hüquqlarının qorunması sahəsində görülən işləri və bu sahədə tvinninq layihəsi çərçivəsində Agentliyin son illər həyata keçirdiyi tədbirləri diqqətlə izlədiklərini qeyd edərək, bu istiqamətdə əməkdaşlığın çox müsbət bir hal olduğunu qeyd etmişdir.

**8. Azərbaycan Respublikası Prezidentinin "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında 2008-ci il 15 sentyabr tarixli 3043 nömrəli Sərəncamından, Azərbaycan Respublikası Prezidentinin "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamından irəli gələn vəzifələrin icrası.**

***8.1.*** *Hesabat ilində "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı"ndan irəli gələn aidiyyəti tapşırıqlar yerinə yetirilmişdir, o cümlədən:*

- "Dövlət Qulluqçularının Reyestrinin aparılması işinin təkmilləşdirilməsi" üzrə mütəmadi olaraq dövlət qulluqçuları haqqında yenilənmiş məlumatlar Dövlət Qulluqçularının Reyestrinə daxil etmək üçün Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət qulluğu Məsələləri üzrə Komissiyaya təqdim olunur.
- "Dövlət orqanlarında etik davranış qaydalarının tətbiqi vəziyyətinin ümumiləşdirilmiş nəticələrinin illik müzakirələrinin keçirilməsi" istiqamətində Korrupsiya barədə məlumat vermə, qərəzsizlik, imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi, maraqların toqquşması və digər etik davranış qaydaları üzrə mütəmadi müzakirələr keçirilmiş, dövlət qulluqçularının digər müvafiq dövlət orqanları tərəfindən təşkil edilən tədris kursları və treninqlərdə iştirakı təmin edilmişdir.
- "Vətəndaş cəmiyyətinin inkişafı ilə bağlı ali təhsil müəssisələrinin yuxarı kurs tələbələri ilə görüşlərin keçirilməsi, QHT sektoru, KİV ilə əlaqələrin genişləndirilməsi" istiqamətində Agentlikdə vaxtaşırı ali təhsil müəssisələrinin yuxarı kurs tələbələri ilə görüşlər keçirilir, onlara əqli mülkiyyət hüquqları ilə bağlı dərslər keçilir, bu tədbirlərin həyata keçirilməsində Agentliyin tabeliyində Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzində yaradılmış Smart-klass təlim-tədris mərkəzindən istifadə olunur. Burada eyni zamanda video-konfransların keçirilməsi üçün avadanlıqlar quraşdırılmışdır. Həmçinin QHT və KİV nümayəndələrinin Agentliyə maneəsiz və sərbəst müraciət etmək imkanları yaradılmışdır. QHT və KİV nümayəndələri Agentlik tərəfindən keçirilən bütün tədbirlərə dəvət olunur, onlara çıxış etmək və onları maraqlandıran sullara cavab almaq imkanları yaradılır. Bununla yanaşı, müəlliflərin və əlaqəli hüquq sahiblərinin ictimai birlikləri ilə vaxtaşırı görüşlər keçirilir və onlara fəaliyyətlərində lazımi dəstək və kömək göstərilir.

***8.2.*** *"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"ndan irəli gələn aidiyyəti vəzifələrin yerinə yetirilməsi üzrə:*

- Hesabat ili ərzində informasiya azadlığı ilə bağlı daxili icraat qaydalarına uyğun olaraq, Müəllif Hüquqları Agentliyinə daxil olan informasiya sorğularının qanunvericiliklə müəyyən olunmuş qaydada qəbul edilməsi və cavablandırılması təmin edilmişdir;
- Müəllif Hüquqları Agentliyinin dövlət qulluqçuları üçün informasiya azadlığı ilə bağlı mütəmadi iclaslar keçirilmiş və informasiya təminatına məsul şəxsin müvafiq qurumlar tərəfindən bu məsələ ilə əlaqədar təşkil edilən treninqlərdə iştirakı təmin edilmişdir;

- Müəllif Hüquqları Agentliyinin fəaliyyəti və keçirdiyi tədbirlər barədə məlumatların mütəmadi olaraq **www.copag.gov.az** saytında yerləşdirilməsi təmin edilmiş, bu barədə elektron KİV-lərə geniş informasiyalar verilmişdir;

- Müəllif Hüquqları Agentliyinin fəaliyyəti barədə ötən ilə görə illik hesabat Agentliyin **www.copag.gov.az** saytında yaradılmış HESABAT bölməsində yerləşdirilmişdir;

- İl ərzində Müəllif Hüquqları Agentliyinin təşkilatçılığı və iştirakı ilə 6 beynəlxalq və milli konfrans keçirilmiş, KİV-lərdə 100-ə yaxın informasiya, maarfləndirici və təbliğat xarakterli material dərc olunmuş, TV və radio kanallarında çoxsaylı veriliş və süjetlər göstərilmiş, KİV-lərin sualları cavablandırılmış, ictimaiyyətlə birbaşa ünsiyyət formalarından istifadə edilmişdir. Agentliyin təşkil etdiyi tədbirlərdə ölkəmizi, digər dünya dövlətlərini və beynəlxalq təşkilatları təmsil edən peşəkar mütəxəssislər, alimlər, beynəlxalq ekspertlər, tarixçilər və qeyri-hökumət təşkilatlarının nümayəndələri tərəfindən 30 prezentasiya və 32 məruzə edilmişdir. Agentliyin nümayəndələri həmçinin müxtəlif beynəlxalq tədbirlərdə 5 məruzə etmişlər;

- Müəllif Hüquqları Agentliyinin fəaliyyət sahəsi ilə bağlı qanunvericilik aktları və əqli mülkiyyət sahəsi üzrə hazırlanmış Terminoloji lüğət nəşr edilmiş və Agentliyin saytına yerləşdirilmiş, bələdçi qaydaların tərtib edilməsi və vətəndaşlar arasında təşviq edilməsi istiqamətində tədbirlər görülmüş, o cümlədən hazırlanmış materiallar müxtəlif tədbirlərdə, həmçinin ictimaiyyətin nümayəndələri ilə görüşlər zamanı onlara paylanmışdır;

- Müəllif Hüquqları Agentliyinin hazırladığı qanun layihələri Agentliyin **www.copag.gov.az** saytında yaradılmış "Normativ hüquqi aktların layihələri" bölməsində yerləşdirilmiş, vətəndaş cəmiyyəti nümayəndələrinə rəy və təkliflərini bildirmək imkanları yaradılmış və ictimai dinləmələrdə onların iştirakı təmin edilmişdir;

- İctimai maraq kəsb edən qərarların qəbul edilməsi prosesində müəlliflərin və digər hüquq sahiblərinin, həmçinin onların əmlak hüquqlarını kollektiv əsasda idarə edən ictimai birliklərin nümayəndələrinin və digər vətəndaşların iştirakını genişləndirmək vasitəsi kimi Agentliyin **www.copag.gov.az** saytından geniş istifadə olunur, vətəndaşların təklif və rəylərinin elektron qaydada qəbulu və rəsmi cavablandırılması təmin edilmişdir;

- Müəlliflər, digər hüquq sahibləri, müəlliflərin və digər hüquq sahiblərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən ictimai birliklərin nümayəndələri və vətəndaşlarla mütəmadi görüşlər keçirilir. Hesabat ilində "Azərbaycan Müəllifləri" İctimai Birliyi ilə iki beynəlxalq tədbir keçirilmiş, həmin İctimai Birliyin, həmçinin "Azərbaycan Professional Kinorejissorlar Gildiyası"nın qaldırdığı problemlərin həllində onlara müvafiq kömək göstərilmişdir. Ümumiyyətlə, ictimai birliklərin nümayəndələri ilə mütəmadi görüşlər keçirilir, qaldırılan problemlər öyrənilir, təhlil edilir və Agentliyin səlahiyyətləri çərçivəsində müvafiq tədbirlər görülür.

- Müəllif Hüquqları Agentliyinin göstərdiyi elektron xidmətlər barədə müəlliflərə və digər əqli mülkiyyət sahiblərinə, həmçinin geniş ictimaiyyətə mütəmadi olaraq məlumat verilir, təqdimatlar keçirilir.

- Elektron xidmətlərin göstərilməsi üçün Müəllif Hüquqları Agentliyinin **www.copag.gov.az** saytında xüsusi Elektron xidmət bölməsi yaradılmış, rüsumların, vergilərin və digər aidiyyəti ödənişlərin elektron qaydada ödənilməsi təmin edilmiş, Müəllif Hüquqları Agentliyi "Elektron hökumət" portalına qoşulmuş, digər dövlət orqanları ilə mübadilə üçün nəzərdə tutulan "Qeydiyyat" informasiya ehtiyatının uyğunlaşdırılması və inteqrasiyası ilə bağlı görülən işlər yekunlaşdırılmışdır.

- İl ərzində Müəllif Hüquqları Agentliyinin Aparatında çalışan dövlət qulluqçuları üçün etik davranış qaydalarına dair maarifləndirmə tədbirləri keçirilmiş, mövzuya dair lazımi metodiki materiallar hazırlanmış və paylanmışdır. 2015-ci il ərzində Agentlikdə etik davranış qaydalarının pozulması halları qeydə alınmamışdır.

***8.3.*** *"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"ndan irəli gələn aidiyyəti vəzifələrin yerinə yetirilməsi üzrə:*

- Müəllif Hüquqları Agentliyinin rəhbərliyi tərəfindən hesabat ilində mütəmadi olaraq vətəndaşların birbaşa qəbulu təmin edilmişdir;
- Vətəndaşların ərizə və şikayətlərinin elektron qaydada qəbulu və rəsmi cavablandırılması təmin edilmişdir və bu işin təkmilləşdirilməsi istiqamətində mütəmadi tədbirlər görülür;
- Müəllif Hüquqları Agentliyində çalışan dövlət qulluqçularının fəaliyyətinin təkmilləşdirilməsi və peşəkarlığının artırılması, dövlət qulluğuna qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsi mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı aidiyyəti üzrə müvafiq tədbirlər görülür, bu sahədə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya ilə sıx əməkdaşlıq edilir;
- Müəllif Hüquqları Agentliyinin dövlət qulluqçuları üçün maraqlar toqquşmasının qarşısının alınması üzrə mütəmadi treninqlər keçirilir və onların digər müvafiq dövlət orqanları tərəfindən təşkil edilən treninqlərdə iştirakı təmin edilir;
- Müəllif Hüquqları Agentliyinin dövlət qulluqçuları üçün etik davranış məsələləri üzrə mütəmadi tədris kursları və treninqlər təşkil edilir və onların digər müvafiq dövlət orqanları tərəfindən təşkil edilən tədris kursları və treninqlərdə iştirakı təmin edilir;
- Hər ilin yekunlarına görə etik davranış məsələləri üzrə illik hesabat hazırlanır və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilir.
- Elektron dövlət satınalmalarının tətbiqi ilə bağlı müvafiq işlər başa çatdırılmışdır və elektron dövlət satınalmaları tətbiq edilir.
- Müəllif Hüquqları Agentliyində 23 yanvar 2014-ci il tarixli 7 nömrəli əmrlə yaradılmış satınalmalar üzrə komissiya fəaliyyət göstərir.
- 2015-ci il ərzində Müəllif Hüquqları Agentliyi üzrə satınalmalarla bağlı heç bir şikayət daxil olmamış, dövlət satınalmaları ilə bağlı korrupsiya halları aşkar edilməmişdir.
- Müəllif Hüquqları Agentliyi tərəfindən hər növbəti il üçün satınalma planları barədə məlumatlar hazırlanaraq Satınalmalar üzrə Dövlət Agentliyinin internet səhifəsində yerləşdirilməsi üçün onlara göndərilir.
- Müəllif Hüquqları Agentliyinin Dövlət satınalma prosedurları nəticəsində bağlanan satınalma müqavilələrinin reyestri yaradılmış və həmin reyestr Satınalmalar üzrə Dövlət Agentliyinin internet səhifəsində Dövlət satınalma prosedurları nəticəsində bağlanan satınalma müqavilələrinin vahid reyestrində yerləşdirilmişdir.
- Korrupsiyaya qarşı mübarizə sahəsində müvafiq qurumlarla əməkdaşlıq edilir və Agentliyin fəaliyyət sahəsi ilə bağlı zərurət yarandığı halda qanunvericiliklə müəyyən edilmiş qaydada beynəlxalq təşkilatlarla və xarici ölkələrin müvafiq orqanları ilə əməkdaşlıq edilməsi məsələsinə baxılması nəzərdə tutulur.
- Agentliyin hesabat ilindəki fəaliyyəti dövründə həmin tövsiyələrin icrası istiqamətində zəruri tədbirlər davam etdirilmişdir.
- Fəaliyyət planında nəzərdə tutulan aidiyyəti tədbirlərin icrası ilə bağlı vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq edilir və bu əməkdaşlığın təkmilləşdirilməsi və inkişaf etdirilməsi üçün müvafiq işlər görülür.
- Müəllif Hüquqları Agentliyinin nümayəndələri mütəmadi olaraq televiziya və radio proqramlarında, müxtəlif formatlı debatlarda iştirak edir, Agentliyin fəaliyyəti və ölkəmizdə əqli mülkiyyət sahəsində həyata keçirilən tədbirlər barədə geniş ictimaiyyətə məlumat verirlər.
- Agentlikdə 960 nömrəli "Qaynar xətt" və ictimai əsaslarla fəaliyyət göstərən "Hüquq məsləhətxanası" müəlliflərin, hüquq sahiblərinin və ictimaiyyət nümayəndələrinin istifadəsindədir. Hesabat dövründə müəllifin, digər hüquq sahiblərinin, ictimai birliklərin nümayəndələrinin və müəllif-hüquq məsələləri ilə maraqlanan şəxslərin Agentliyə 1400-dən artıq müraciət və sorğuları operativ şəkildə

cavablandırılmış və Agentliyin səlahiyyətləri çərçivəsində müvafiq köməklik göstərilmişdir.

- Hesabat ilində müxtəlif məhkəmə instansiyalarında keçirilmiş 30 məhkəmə iclasında iştirak edilmiş, dövlət, məhkəmə orqanlarının və hüquq sahiblərinin sorğuları əsasında müəllif-hüquq məsələləri ilə bağlı 13 ekspert rəyi hazırlanmışdır.

- Müəllif Hüquqları Agentliyinin fəaliyyət sahəsi ilə bağlı ötən il 3 kitab, 29 broşura və kitabça, o cümlədən "Əqli mülkiyyət dünən, bu gün və sabah", "Müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqları sahəsinin inkişafının Milli strategiyası" (Azərbaycan və rus dillərində), "İnternetdə müəlliflik hüququnun qorunması ilə bağlı çağırışlar: Azərbaycan təcrübəsi" (Azərbaycan və rus dillərində), "İnternet və müəlliflik hüququ: maraqların toqquşması və kompromisin axtarışı" (Azərbaycan, rus və ingilis dillərində), "Müəllif-hüquq qanunvericiliyində istisnalar və məhdudiyyətlər" (Azərbaycan və rus dillərində) kitabçaları buraxılmış, çoxsaylı maarifləndirici materiallar, o cümlədən müəllif-hüquq sahəsi üzrə 7 beynəlxalq konvensiya, müqavilə və sazişlər, qanunlar, digər normativ hüquqi aktlar çap edilmiş, keçirilən tədbirlərdə təbliğat vasitəsi kimi paylanmışdır.

- Bununla yanaşı, elektron və çap variantlarında "Müəlliflik hüququ və əlaqəli hüquqlar" və "Rəqəmsal iqtisadiyyatda əqli mülkiyyət" adlı iki dərs vəsaiti, həmçinin "Əqli Mülkiyyət Hüquqlarının Təminatı", "Müəlliflik hüququ" və "Müəlliflik hüququnun tarixi" adlı multimedia dərs vəsaitləri buraxılmışdır.

- Agentliyin hesabat ilindəki fəaliyyəti dövründə mütəmadi olaraq korrupsiyaya qarşı mübarizə üzrə maarifləndirici materiallardan istifadə edilmişdir.

**9. Kollektiv idarəetmə sahəsində aparılan işlər.** 2015-ci ildə müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının idarə edilməsi sahəsində fəaliyyət göstərən kollektiv idarəetmə təşkilatlarına, o cümlədən "Azərbaycan müəllifləri" İctimai Birliyinə və "Azərbaycan Professional Kinorejissorlar Gildiyası"na hər cür metodiki və hüquqi yardım göstərilmiş, fəaliyyət sahələri üzrə qarşılaşdıqları problemlərin həllində köməklik edilmiş, bütövlükdə kollektiv idarəetmə sahəsi Müəllif Hüquqları Agentliyinin fəaliyyətində diqqət mərkəzində saxlanmışdır. Kollektiv idarəetmə təşkilatları tərəfindən 2015-ci ilə görə müəlliflər üçün yığılmış qonorarın həcmi barədə müvafiq informasiyalar təqdim edilmədiyinə görə, onların il ərzində yığdıqları qonorar barədə məlumat bu Hesabatda öz əksini tapmamışdır.

Bununla yanaşı, kollektiv idarəetmə təşkilatları ilə əhatə olunmayan sahələrdə müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi və istifadəyə görə onlar üçün qonorar yığılması işi təşkil olunmuş, bu sahədə qabaqcıl təcrübənin öyrənilməsi, kollektiv idarəetmə təşkilatları ilə dövlət orqanları arasında əlaqələrin inkişafı, müəllif-hüquq subyekti kimi onların fəaliyyətinə dövlət nəzarətinin formaları və hüquqi əsaslarının təkmilləşdirilməsi istiqamətlərində fəaliyyət davam etdirilmişdir.

Eyni zamanda müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi ilə bağlı keçirilən tədbirlərdə Agentliyin rəhbərliyi tərəfindən bu sahədə olan çatışmazlıqlar və kollektiv idarəetmə təşkilatlarının fəaliyyətində yol verilən nöqsanlar, o cümlədən musiqili əsərlərin müəlliflərinin əmlak hüquqlarını idarə edən ictimai birlik tərəfindən yığılan qonorarın məbləğinin az və 15-20 il əvvəl dövlət orqanı tərəfindən yığılan qonorarın həcmi səviyyəsində olması, kollektiv idarəetmə cəmiyyətlərin fəaliyyətinin kifayət qədər şəffaf və səmərəli olmaması, kollektiv idarəetmə təşkilatlarının infrastrukturunun köhnə olması və rəqəmsal dövrün tələblərinə cavab verməməsi, İnternetdə rəqəmli hüquqların idarə olunmaması və s. məsələlər qeyd olunmuş, həmçinin Agentlik tərəfindən hazırlanmış və həyata keçirilən infrastruktur layihələri, o cümlədən one-stop-shops formatında onlayn lisenziyalaşma və monitorinq (müəllif hüququ ilə qorunan hər hansı bir kontent üçün bir pəncərə prinsipi) sistemi barədə məlumat verilmişdir.

**Müəllif qonorarı.** 2015-ci ildə müəlliflərin əmlak hüquqlarının idarəçiliyini təmin etmək nəticəsində 83595 manat müəllif qonorarı yığılmış, qonorar hesablanmış yerli və xarici müəlliflərin adları, soyadları və mənsub olduqları ölkələr barədə məlumatların dəqiqləşdirilməsi istiqamətində mütəmadi iş aparılmışdır.

Agentliyin bank hesabına köçürülmüş 102917 manat müəllif qonorarının təyinatı üzrə bölgüsü aparılmış, köçürmə yolu ilə 56355 manat müəllif qonorarı ödənilmişdir. Qonorardan tutulmuş gəlir vergisi 15950 manat vəsait Dövlət büdcəsinə köçürülmüşdür.

Son illər xidmət edilən müəlliflərin sayında davamlı olaraq artım müşahidə olunmuşdur. Məsələn, 2012-ci ildə xidmət göstərilən müəlliflərin sayı 3188, 2013-cü ildə 3190, 2014-cü ildə 3200, 2015-ci ildə isə 3231 olmuşdur.

2015-ci ildə Agentliyin qonorar yığımını əhatə etdiyi istifadəçi təşkilatlarda- Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeçiliyində olan teatr-tamaşa müəssisələrində müəllif qonorarının hesablanması və ödənilməsi üzrə müəyyən iş aparılmışdır. Göstərilən dövr ərzində əsərlərdən istifadəyə görə qonorar ödəməyən, həmçinin qonorar üzrə borc qalıqları olan teatr-konsert müəssisələri ilə əlaqə saxlanılmış, müəllif qonorarının düzgün hesablanması və vaxtında Agentliyin hesabına köçürülməsini təmin etmək üçün operativ araşdırmalar aparılmış, müvafiq üzləşmə aktları tərtib edilmiş, borc qalıqlarının miqdarı dəqiqləşdirilmişdir.

2015-ci ilin statistik göstəriciləri qonorarın məbləğinin və qonorar hesablanmış müəlliflərin sayının artdığını göstərir. Hesablanmış qonorar barədə 331 nəfər müəllifin müraciətlərinə baxılmış, müvafiq izahatlar verilmişdir.

Müəlliflərin əmlak hüquqlarının kollektiv əsasda idarə olunması və qarşılıqlı yardım göstərilməsi sahəsində Müəllif Hüquqları Agentliyi və Rusiya Müəllif Cəmiyyəti arasında bağlanmış sazişin müddəalarına uyğun olaraq müəlliflərin qonorarının qarşılıqlı hesablaşma hesabına köçürülməsi yönümündə danışıqlar aparılmışdır.

**10. Kadrların peşəkarlığının artırılması, vətəndaşların qəbulu və kargüzarlığın təşkili.**

1) Kadrların peşəkarlığının artırılması. Hesabat ilində Müəllif Hüquqları Agentliyində kadrlarla iş və dövlət qulluğuna qəbul “Dövlət qulluğu haqqında” Qanuna və onun tətbiqi ilə bağlı qəbul edilmiş normativ-hüquqi aktların, həmçinin Agentliyin tabeliyində Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinə qəbulla bağlı prosedurlar Əmək Məcəlləsinin tələblərinə uyğun aparılmış, kadr resurslarının möhkəmləndirilməsi, mütəxəssislərin peşəkarlıq səviyyəsinin artırılması istiqamətlərində ardıcıl tədbirlər həyata keçirilmişdir. 3 nəfər Azərbaycan Diplomatiya Akademiyasının təşkil etdiyi “Enerji və ətraf mühit” adlı kursu, 1 nəfər Ümumdünya Ticarət Təşkilatının “ÜTT-də müəlliflik hüququ” mövzusunda onlayn kursunu və ÜƏMT-nin Koreya Əqli Mülkiyyət İdarəsi, Koreya Elm və Texnologiya İnstitutu və Koreya İxtiraların Təşviqi Assosiasiyalarının birgə təşkil etdiyi “Əqli Mülkiyyət panoraması – multimedia kontentləri” mövzusunda onlayn kursu, həmçinin ÜƏMT və Britaniya Müəlliflik Hüququ Şurası tərəfindən birgə əməkdaşlıqda təşkil edilmiş müəlliflik hüququ və əlaqəli hüquqlar üzrə təlim kursunu bitirərək müvafiq sertifikatlar almışlar.

Agentliyin əməkdaşları il ərzində keçirilən müəlliflik hüququ və əlaqəli hüquqlar üzrə Azərbaycan qanunvericiliyinin öyrənilməsi üzrə seminarlarda, təlim kurslarında və digər dövlət orqanları tərəfindən təşkil olunan dövlət qulluğunun aktual problemlərinə dair elmi-praktik konfrans və seminarlarda, həmçinin müxtəlif beynəlxalq tədbirlərdə iştirak etmişlər.

Hesabat dövründə Agentliyin Aparatına 1 nəfər işə qəbul edilmiş, Agentliyin Aparatından 2 nəfər, Agentliyin tabeliyində Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzindən isə 1 nəfər öz xahişi ilə işdən azad olunmuş, 8 nəfərə ixtisas dərəcəsi verilmişdir. Kadrlarla iş və işə qəbulla bağlı prosedurlar dövlət qulluğu sahəsini

tənzimləyən normativ hüquqi aktların və Əmək Məcəlləsinin tələblərinə uyğun olaraq aparılmışdır.

Agentlik üzrə əmr layihələrinin hazırlanması, verilmiş əmrlərin təyinatı, aidiyyəti üzrə çatdırılması və onların icrasına nəzarət təmin edilmişdir. Həmçinin kadrlarla bağlı yenilənmiş məlumatların mütəmadi olaraq Dövlət Qulluqçularının Reyestri İnformasiya Sisteminə daxil edilməsi təmin edilmişdir.

2) Kargüzarlığın təşkili və vətəndaşların qəbulu. Hesabat dövründə kargüzarlıq işləri Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"a uyğun aparılmışdır. Agentlik üzrə əmr layihələrinin hazırlanmasına, imzalanmış əmrlərin təyinatı və aidiyyəti üzrə çatdırılmasına və icrasına nəzarət təmin edilmişdir.

Hesabat dövründə Müəllif Hüquqları Agentliyinə 1041 sənəd daxil olmuşdur. Onlardan Azərbaycan Respublikasının Prezidenti Administrasiyasından 17, Milli Məclisdən 1, Nazirlər Kabinetindən 133, Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkilindən 5, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyadan 16, nazirlik və komitələrdən 152, məhkəmələrdən 40, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən 3, Hesablama Palatasından 1, hüquqi şəxslərdən 73, fiziki şəxslərdən 110, ictimai birliklərdən 14, xarici ölkələrdən 72, bilavasitə əsərlərin qeydiyyatı ilə bağlı 404 sənəd daxil olmuşdur. Sənədlərin Agentlikdə hərəkəti, təşkilata daxil olduğu andan icra edildiyi və ya göndərildiyi anadək onların dövriyyəsi və icrasına ciddi riayət olunmuşdur.

Agentlikdən 534 sənəd göndərilmişdir. Onlardan 13-ü Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, 1-i Milli Məclisə, 60-ı Nazirlər Kabinetinə, 4-ü Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə, 5-i Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya, 158-i nazirlik və komitələrə, 2-si Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə, 4-ü Hesablama Palatasına, 1-i Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinə, 17-si məhkəmələrə, 98-i hüquqi şəxslərə, 111-i fiziki şəxslərə, 8-i ictimai birliklərə, 52 sənəd isə xarici ölkələrə göndərilmişdir.

Vətəndaşların qəbulu və qəbulla əlaqədar kargüzarlığın aparılması üzrə iş "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr tarixli 52 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrdə vətəndaşların təklif, ərizə və şikayətləri üzrə kargüzarlığın aparılması Qaydaları"na uyğun həyata keçirilmişdir.

Agentliyin rəhbərliyi və vəzifəli şəxsləri tərəfindən qəbul edilmiş vətəndaşların problemlərinin operativ şəkildə həll edilməsi üçün Agentliyin səlahiyyətləri çərçivəsində zəruri tədbirlər görülmüşdür. Eyni zamanda 2016-cı il üçün vətəndaşların qəbulu qrafiki Agentlik sədrinin müvafiq əmri ilə təsdiq edilmiş və Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinə göndərilmişdir.

Hesabat dövründə vətəndaşlardan birbaşa Agentliyə 492 müraciət (onlardan 80-i elektron qaydada), 5 müraciət isə aidiyyəti üzrə baxılmaq üçün digər təşkilatlardan daxil olmuşdur (cəmi 497). Müraciətlərin 373-ü müsbət, 10-u qismən həll edilmiş, 86-na müvafiq izahat verilmiş, 21-i əsassız sayılmış, 7-si hal-hazırda icradadır.

Vətəndaşların müraciətlərinə baxılmasının nəticəsi barədə məlumat və bu sahədə görülən işlər haqqında qısa Arayış Azərbaycan Respublikasının Prezidenti Administrasiyasına göndərilmişdir.

**11. Agentliyin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri.** Azərbaycan Respublikası Prezidentinin büdcə vəsaitlərinə münasibətdə verdiyi tapşırığa uyğun olaraq, hesabat ilində büdcə vəsaitləri qənaətlə xərclənmişdir. Belə ki, 2015-ci ildə Agentliyin saxlanması üçün dövlət büdcəsində 650774 manat vəsait nəzərdə tutulmuşdur. İllik smeta xərclərinə uyğun olaraq bu vəsaitin 392033 manatı əmək ödənişlərinə (o cümlədən, 324001 manat ştatda olan işçilərin əmək haqqının ödənilməsinə, 2882 manat ştatdankənar işçilərin əmək haqqının ödənilməsinə, 65150 manat sair pul ödənişlərinə), 92747 manat DSMF-na ayırmalara, 78834 manat vəsait Agentliyin saxlanması üçün digər maddələr üzrə xərclənmişdir. Cəmi faktiki xərc 557046 manat olmuşdur.

2015-ci ilin Dövlət büdcəsindən əqli mülkiyyət hüquqlarının qorunmasına və təmin edilməsinə dair ayrılmış 304832 manat vəsait nəzərdə tutulmuşdur. İllik smeta xərclərinə uyğun olaraq həmin vəsaitin 40087 manatı Agentliyin tabeliyində Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin işçilərinin əmək haqqının ödənilməsinə, 10792 manat DSMF-na, 9277 manat əməyin ödənilməsi ilə bağlı sair pul ödənişlərinə sərf olunmuşdur.

Hesabat ilində sair xərclər maddəsi üzrə: Azərbaycan ənənəvi musiqilərindən muğamlar, aşıq mahnıları, xalq mahnıları və rəqslərin rəqəmsal məlumat bazasının yaradılması 24000 manat, serverin və digər maşın və avadanlığın alınmasına, saxlanmasına, təmirinə və xidmət edilməsinə 15160 manat, icarə haqqına 15938 manat, tədbirlərin təşkilinə 36951 manat, abunə haqlarına 2243 manat, qəzet-jurnal üçün abunə xərclərinə 2008 manat, dayanacaq haqqı 4290 manat və. s xərclənmişdir. Cəmi faktiki xərc 198438 manat olmuşdur.

Bir çox spesifik mühasibat sənədlərinin yeni formaları elektron formada Milli Mühasibat Uçotu Standartlarına uyğun (öhdəlik sənədi, malların (iş və xidmətlərin) alış sənədi, kassa xərclərinin sifarişi, qonorar xərclərinin sifarişi, əmək haqqının hesablanması, əmək haqqının ödənişi cədvəli, əmək haqqının Visa elektron kart vasitəsi ilə verilməsi, qonorar ödənişi cədvəli, qonorarın Visa elektron kart vasitəsi ilə verilməsi, rüblük ümumi əməliyyatlar, dövriyyə balansı, kassa əməliyyatları, bank büdcə əməliyyatları, bank qonorar əməliyyatları) tətbiq edilmişdir.

Agentlik üzrə vergi hesabatlarının il ərzində Nazirlər Kabinetinin 2007-ci il 27 iyul tarixli 120 №-li qərarı ilə təsdiq edilmiş “Vergi hesabatlarının elektron sənəd formasında göndərilməsi Qaydası”na uyğun olaraq elektron sənəd formasında təqdim olunması təmin edilir. Büdcə təşkilatları üçün Maliyyə və Mühasibatlıq hesabatları (BTMMH) avtomatlaşdırılmış informasiya sisteminin tətbiqi üzrə işlər görülür.